# Haqqında çəkilmiş filmlər

1. Anarla üz-üzə (film, 1988) (Mərkəzi Televiziyanın sifarişi ilə Anar haqqında çəkilmiş iki hissəli sənədli film. Azərbaycantelefilm. Ssenari müəllifi Zeynal Məmmədov, rejissor Ramiz Mirzəyev (Həsənoğlu), operator Adil, bəstəkar Cavanşir Quliyev. Bəstəkarın ifasında səslənən mahnının sözləri Rəsul Rzanındır).

2. Anarın anları (film, 2008) tammetrajlı sənədli telefilm, rejissor Ramiz Həsənoğlu



Ramiz Həsənoğlu tərəfindən 2008-ci ildə çəkilmiş film yazıçı, Xalq şairi, tərcüməçi, ssenarist, Azərbaycan Yazıçılar Birliyinin sədri Anarın həyat və yaradıcılığını işıqlandırır.

Filmin aparıcı bölmələrindən biri dostların, mənən, ruhən yaxınların Anarın şəxsiyyəti, xarakteri, yaradıcılığı ilə bağlı deyimləridir. Şərti desək — "Sinxron bloku". Çingiz Aytmatovun, Oljas Süleymenovun, İvan Draqın, eləcə də bizim görkəmli sənətkarlarımızın sayqılı fikirləri! Geniş tamaşaçı və oxucu kütləsinə məlum olmayan məlumatlar. Bu deyimlər portretin daha tutumlu, qabarıq, xarakterik alınmasına xidmət edir. Rejissor bu deyimləri film boyu səpələməklə dinamikanı gücləndirir, müxtəlif dövrlərə aid məqamları tamaşalardan, filmlərdən alınmış parçalarla bağlayaraq vahid bir süjet yaradır. Sənətkarın, şəxsiyyətin portretinin cızılması, təkcə, bilavasitə onun özüylə bağlı olmur. Burda müxtəlif amillər nəzərə alınır. Filmin yaradıcılarının Rəsul Rza dühasına, Nigar Rəfibəyli ruhuna, ümumiyyətlə, Anarın soy kökünə — Azərbaycan tarixində müstəsna xidməti olmuş Rəfibəylilər fenomeninə müraciəti, Anarın bu irsə sədaqəti, onların layiqli davamçısı olmasının təqdimi, özü də onun portretinə maraqlı əlavədir.

Şəkillər — dondurulmuş anlar, məqamlardır. Ömrün, yaşanan həyatın zərrəcikləridir. Filmin "Anarın anları" adlandırılması təsadüfi deyil; düşünülmüş prinsipdir. Həmin o anların bir növ "kollaj" şəklində təqdimi əsaslandırılmış üslubdur. Film boyu bu üslubun bir neçə dəfə təkrarlanması — yığılıb-dağılma prosesi, zərrəciklərə dönüb səpələnməsi yaşanmış ömrə işarədir, həm də yeni bir fikrə, dövrə, bölməyə keçidə işarədir.

Film yazıçının 70 iliyinə həsr olunub.